

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 74 (22.985)

21 aprel 2018-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Aprelin 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı Metropoliteninin qatar parkının yenilənməsi məqsədilə paytaxta gətirilən yeni qatarlarda yaradılan şəraitlə tanış olub.

Prezident İlham Əliyev Bakı Metropoliteninin "İçərişəhər" stansiyasına gəlib.

"Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin sədri Zaur Hüseynov dövlətimizin başçısına metronun konseptual inkişaf sxemi və yeni metro qatarları barədə məlumat verib. Son illərdə digər sahələrdə olduğu kimi, Bakı Metropolitenin ən müasir avadanlıqla təchiz edilməsi və sərnişinlərin rahatlığının təmin olunması istiqamətində Prezident İlham Əliyevin rəhbərliyi ilə böyük işlər həyata keçirilir.

Dövlətimizin başçısı yeni metro vaqonlarına baxıb.

Prezident İlham Əliyev yeni qatarla metronun "İçərişəhər" stansiyasından "Nəriman Nərimanov" stansiyasına gedib.

Dövlətimizin başçısına metronun konseptual inkişaf sxemi barədə məlumat verilib.

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın yaradılmasının 10 illiyi qeyd olunub



***Tədbirdən əvvəl komissiyanın kollektivi ümummilli liderimiz Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzində ucaldılan möhtəşəm abidəsi önünə gül dəstələri qoyub, Heydər Əliyev Muzeyini ziyarət ediblər.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın sədri İsmayıl Qəribli tədbir iştirakçılarını əlamətdar gün münasibətilə təbrik edərək bildirib ki, ölkəmizdə dövlət qulluğu siyasətinin əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulub. Naxçıvan Muxtar Respublikasında da dövlət qulluğu sahəsində aparılan islahatlar uğurla davam etdirilir. Müasir tələblərə cavab verən dövlət qulluğu sistemi formalaşdırılıb, "Elektron hökumət" portalı, Vətəndaşların Müraciətləri üzrə Elektron Qeydiyyat və İdarələrarası Elektron Sənəd Dövriyyəsi sistemləri istifadəyə verilib, dövlət orqanları üçün ən müasir standartlara cavab verən yeni inzibati binalar tikilib, dövlət qulluqçularının fəaliyyəti üçün lazımi iş şəraiti yaradılıb.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2008-ci il 22 aprel tarixli Fərmanı ilə yaradılıb. Komissiyanın yaradılmasında əsas məqsəd muxtar respublikada kadr siyasətinin aparılması, dövlət qulluğu ilə bağlı qəbul edilmiş normativ-hüquqi aktların tətbiqinin təşkil edilməsi, dövlət qulluğu üçün kadrların müsabiqə yolu ilə seçilməsi və yerləşdirilməsindən ibarətdir. Komissiya Ali Məclis Sədrinin müəyyənləşdirdiyi tapşırıqları prinsip və istiqamət kimi öz fəaliyyətində rəhbər tutur.

Qeyd olunub ki, ötən dövrdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın Əsasnaməsinə uyğun olaraq dövlət orqanları tərəfindən dövlət qulluğuna aid normativ aktların tələblərinə riayət olunması nəzarətdə saxlanılıb, dövlət qulluğuna dair qanunvericiliyin dövlət orqanlarında tətbiqinə nəzarət edilib. Təkcə son üç ildə 17 dövlət orqanının qanunvericiliyə uyğun olmayan 22 qərarı ləğv edilib.

Komissiyanın yaradılması muxtar respublikada məşğulluq strategiyasının həyata keçirilməsinə öz müsbət töhfəsini verib. Belə ki, komissiya tərəfindən indiyədək keçirilmiş 14 müsabiqədə 5068 namizəd iştirak edib, onlardan 983 nəfər müsabiqələri müvəffəqiyyətlə başa vuraraq dövlət orqanlarında vakant dövlət qulluğu vəzifələrinə təyin olunub. Hazırda muxtar respublikanın dövlət orqanlarında inzibati vəzifə tutan dövlət qulluqçularının 38,2 faizi komissiyanın keçirdiyi müsabiqələrdə uğur qazanmış dövlət qulluqçularıdır. Müsabiqələrdə iştirak edənlərin sayının ildən-ilə artması onu göstərir ki, bu sahədə həyata keçirilən dövlət siyasəti öz bəhrəsini verir və gənclərin dövlət qulluğuna marağı artır.

Bundan başqa, komissiya tərəfindən dövlət qulluğunun xüsusi növünə aid dövlət orqanlarında vakant vəzifələrin tutulması üçün elan edilmiş müsabiqələrin test imtahanları keçirilib. Müxtəlif dövlət idarələrində və nazirliklərdə vakant vəzifələrin tutulması üçün keçirilmiş 36 müsabiqədə iştirak edən 1753 namizəddən 490-ı test imtahanlarında müvafiq keçid balını toplayıb. Komissiyanın sədri dövlət qulluğu sahəsində qəbul edilmiş normativ-hüquqi aktların dövlət qulluqçuları tərəfindən öyrənilməsi və etik davranış qaydaları ilə bağlı maarifləndirici tədbirlərin diqqət mərkəzində saxlanıldığını, dövlət qulluğu haqqında qanunvericiliyin tətbiqi ilə əlaqədar digər mərkəzi və yerli icra hakimiyyəti orqanlarına metodik köməklik göstərildiyini də diqqətə çatdırıb.

Bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına əsasən yeni proqram təminatının yaradılması komissiyanın fəaliyyətinin yaxşılaşmasına səbəb olub, elektron xidmətlərin həyata keçirilməsinə, namizədlərin internet üzərindən qeydiyyatdan keçməklə müsabiqədə iştirakına imkan yaradıb. Dövlət Qulluqçuları Reyestrinin aparılması üçün proqram təminatı hazırlanmışdır.

İsmayıl Qəribli çıxışının sonunda göstərilən diqqət və qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirib.

Tədbirdə komissiyanın Dövlət qulluğuna kadrların seçilməsi şöbəsinin müdiri Samiq Salayev, İnformasiya texnologiyaları və proqram təminatı şöbəsinin müdiri Mahir Abbasov və Mühasibat və ümumi işlər sektorunun müdiri Türkan Gülməmmədli çıxış ediblər.

Sonda öz işində fərqlənən əməkdaşlara qiymətli hədiyyələr və pul mükafatları verilib.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti***

***Naxçıvan Müəllimlər İnstitutunda muxtar respublikanın qabaqcıl müəllimlərinin və uşaq bağçaları əməkdaşlarının iştirakı ilə keçirilən konfransın plenar iclasını institutun rektoru, AMEA-nın müxbir üzvü Oruc Həsənli açıb.***

## "Təhsil kurikulumları: praktik tətbiqlər" mövzusunda respublika elmi konfransı keçirilib



O, təhsil kurikulumlarının tədrisə tətbiqinin əhəmiyyətindən bəhs edərək bildirib ki, artıq öz bəhrələrini verməkdə olan fənn kurikulumları muxtar respublikanın bütün tam orta məktəblərində yeni metod kimi tətbiq edilir. Bunun üçün fənn müəllimləri və muxtar respublikanın uşaq bağçalarında çalışan tərbiyəçi və müəllimlər üçün kurslar təşkil edilir.

Plenar iclasda institutun Kurikulum mərkəzinin müdiri Tamara Baxşəliyevanın "Uşaq şəxsiyyəti formalaşdırılmasında kiçik qruplarla işin əhəmiyyəti", Naxçıvan Qarnizonu tam orta məktəbinin ibtidai sinif müəllimi Gülxarə Tarverdiyevanın "İbtidai siniflərdə riyaziyyat fənnindən "Dördbucaqlılar" mövzusunda dərs nümunəsi", Naxçıvan şəhərindəki 14 nömrəli tam orta məktəbin müəllimi, Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi İmmi Hüseynovanın "Azərbaycan tarixi fənnindən "Azərbaycan Xalq Cümhuriyyətinin sosial-iqtisadi və mədəni tədbirləri" mövzusunda dərs nümunəsi", Naxçıvan şəhər 5 nömrəli uşaq bağçasının müəllimi Cəmilə Hüseynovanın "Məktəbəqədər müəssisələrdə kurikulumların tətbiqi yolları", Ordubad rayonunun Dəstə kənd tam orta məktəbinin müəllimi Hüseynəli Bağırovun "Azərbaycan tarixi dərslərində fənlərarası inteqrasiya" və başqa mövzularda məruzələr dinlənilib.

Məruzələrdə qeyd olunub ki, fənn kurikulumlarında təlimin ümumi və xüsusi nəticələri vardır. Bunlar həm məzmunu müəyyənləşdirmək, həm də qiymətləndirmə aparmaq baxımından əhəmiyyət daşıyır.

Konfrans öz işini beş bölmə üzrə davam etdirib. Bölmələrdə Naxçıvan Muxtar Respublikasının Əməkdar bədən tərbiyəsi və idman xadimi, Naxçıvan şəhərindəki 17 nömrəli tam orta məktəbin müəllimi Kəmaləddin İsmayılovun, 14 nömrəli tam orta məktəbin ibtidai sinif müəllimi Aynur Eyvazovanın, 10 nömrəli uşaq bağçasının müdiri Elnarə Seyidovanın, 1 nömrəli uşaq bağçasının tərbiyəçisi Səfa Bağırovanın, 11 nömrəli uşaq bağçasının tərbiyəçisi Lamiyə Rzayevanın, həmin bağçanın tərbiyəçisi Səbinə İsmayılovanın və başqalarının müxtəlif mövzularda məruzələri maraqla qarşılanıb.

**✍ Muxtar MƏMMƏDOV**

## Süni Mayalanma Mərkəzinin tikintisinə başlanılıb

*Muxtar respublikada mal-qaranın cins tərkibinin yaxşılaşdırılması məqsədilə Süni Mayalanma Mərkəzinin tikintisinə başlanılıb. Mərkəz Babək rayonunda 2 hektara yaxın ərazidə inşa olunur. Burada iki mərtəbədən ibarət inzibati bina, yataqxana, tövlə, yem anbarı və yemhazırlama sahəsi, baytarlıq klinikası, karantin məntəqəsi, müxtəlif laboratoriyalar və digər obyektlər inşa olunacaq.* Hazırda kompleksə məxsus inzibati binanın təməlində beton-qəlib işləri görülür, ərazi hamarlanır.



Qeyd edək ki, mərkəzin tikintisinə ölkə başçısı cənab İlham Əliyevin 2018-ci il 22 fevral tarixli "Naxçıvan Muxtar Respublikasında heyvandarlığın inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" imzaladığı Sərəncamla start verilib. Həmin sərəncamla mərkəzin tikintisinə 3 milyon manat vəsait ayrılıb. Bu işlərin həyata keçirilməsi Naxçıvanda heyvandarlığın keyfiyyətcə yeni mərhələyə qədəm qoymasına imkan verəcək. Belə ki, hazırda 23 süni mayalanma məntəqəsinin fəaliyyət göstərdiyi muxtar respublikada yeni yaradılacaq mərkəz bu sahədə işləri daha da təkmilləşdirəcək. Müvafiq məntəqələrdə həyata keçirilən tədbirlər vahid mərkəzdən mütəşəkkil şəkildə idarə olunmaqla müsbət nəticə verəcək. Bununla da heyvanların cins tərkibinin yaxşılaşdırılması prosesi daha da sürətləndiriləcək ki, bu da süd və ət istehsalının bir neçə dəfə artmasına imkan verəcək. Reallaşdırılacaq layihənin digər bir əhəmiyyəti ondadır ki, gələcəkdə muxtar respublikadan cins mal-qaranın diri çəkidə ixracı üçün də potensial baza formalaşacaq.

Mərkəz həm də bir elmi-tədqiqat müəssisəsi kimi mühüm əhəmiyyət kəsb edəcək. Əvvəllər süni mayalanma toxumları başqa ölkələrdən gətirilirdisə, artıq buna ehtiyac olmayacaq. Əvvəllər muxtar respublikaya gətirilən həmin toxumların saxlanılma şəraitində də müəyyən çətinliklər var idi. Artıq yeni yaradılacaq mərkəzdə toxum istehsalı da aparılacağı üçün həmin problemlər ortadan qaldırılacaq. Burada təkcə iribuynuzlu deyil, xırdabuynuzlu heyvanların, quşların, hətta arıların da cins tərkibi yaxşılaşdırılacaq.

Məlumat üçün deyək ki, bu, Azərbaycanda fəaliyyət göstərəcək ikinci Süni Mayalanma Mərkəzi olacaq.

**Muxtar RZAZADƏ**




***YUNESKO 1995-ci il noyabrın 15-də Parisdə keçirilən 28-ci sessiyasında hər il aprel ayının 23-nü Ümumdünya Kitab və Müəllif Hüquqları Günü elan etmişdir.***

*23 aprel Ümumdünya Kitab və Müəllif Hüquqları Günüdür*

# Kitab bəşəriyyətin bilik və elm xəzinəsidir




Kitab çapının meydana gəlməsindən bu günümüzədək neçə əsrdir ki, kitab mənəvi və əqli sərvətlərimizin nəsildən-nəslə ötürülməsində əvəzsiz rol oynamaqdadır. Orta əsrlərdə Azərbaycan şairləri əsərlərinin sonunda əsl adı və poetik ləqəbi işlətməklə müəlliflik hüququnun səmərəli qorunma formasından istifadə etmişlər.

Azərbaycan kitab mədəniyyətinin X-XII əsrlərdən başlayaraq yeni inkişaf mərhələsinə qədəm qoyması ədəbiyyat, coğrafiya, təbabət, astronomiya, tarix, fəlsəfə, məntiq və elmin başqa sahələrinə aid əsərlərin yaranmasına səbəb olmuşdur. Bu dövrdə Azərbaycan kitab tarixini zənginləşdirən böyük alimlər, şairlər yaşamışdır. Eyni zamanda bu dövrdə yaşamış Xətib Təbrizi, Məhsəti Gəncəvi, Nizami Gəncəvi, Əfzələddin Xaqani, Nəcməddin Naxçıvani, Hinduşah Naxçıvani, Nəsirəddin Tusi, Qətran Təbrizi, Bəhmənyar, Mahmud Şəbüstəri və başqalarının müəllif hüquqlarının qorunmasını ortaya qoyan əlyazmaları bu günə qədər gəlib çatmışdır. Kitab tariximizin ilk mərhələsinə aid olan əlyazmalar ölkəmizdən başqa, dünyanın ABŞ, Rusiya, Fransa, Almaniya, Vatikan, Polşa, Çexiya, Çin, Türkiyə, İran, Özbəkistan və başqa ölkələrində qorunub saxlanılmaqdadır.

Humanizm və bilik mənbəyi olan Azərbaycan klassiklərinin kitabları orta əsrlərdə böyük şöhrət qazanmışdı. Sonrakı dövrlərdə də Azərbaycanın Naxçıvan, Ordubad, Bakı, Şamaxı, Gəncə, Bərdə, Qarabağ və başqa yerlərində yaradılan kitablar dərin məzmunu, dilinin bədiiliyi, tərtibatının gözəlliyi ilə seçilirdi. Bu əlyazma və kitablar bədii tərtibat cəhətdən bir-birindən fərqlənirdi. Katiblik, xəttatlıq, miniatür sənəti ən şərəfli peşə kimi bu dövrdə böyük hörmət qazanmışdı. Kitab sənətkarlarımız xəttat Mirəli Təbrizi, Qazı Məhəmməd Bağır Ordubadi, Əbdülbaqi Danişmənd, Qasım bəy Səhhaf və onlarla başqaları kitab mədəniyyətimizin formalaşmasında və inkişafında böyük xidmətlər göstərmişlər. Məhz buna görə də Azərbaycan kitabları dünyanın tanınmış kitabxanalarına yol tapmış və bu günə qədər gəlib çıxmışdır.

***“Azərbaycan xalqının milli sərvəti onun intellektual potensialıdır, mədəniyyəti, ədəbiyyatıdır. Biz müstəqil dövlətimizi boş yerdə qurmağa başlamamışıq. Bizim iqtisadi potensialımız kimi başqa bir sərvətimiz – intellektual potensialımız da var. Dahi insanlarımız Azərbaycanın böyük intellektual potensialını, mülkiyyətini yaradıblar”***, – deyən Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev milli sərvətimiz olan mədəniyyətimizi, ədəbiyyatımızı, kitab nəşrini, bir sözlə, xalqımızın intellektual potensialının qorunub yaşadılması və inkişaf etdirilməsi qayğısına qalmış, kitab nəşri və müəlliflik hüququ sahəsində böyük işlər həyata keçirmişdir.

XX əsrin 70-ci illərindən başlayaraq ulu öndərimizin rəhbərliyi ilə Azərbaycanda mətbəə və nəşriyyat sahələri yenidən qurulmuş, kitab nəşrinin kütləviliyini təmin etmək üçün mühüm tədbirlər görülmüş, bu sahədə çalışan intellektual və yaradıcı insanlara hərtərəfli qayğı göstərilmişdir. Müstəqillik illərində də ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə kitab nəşri və müəlliflik hüququ sahəsində ardıcıl tədbirlər görülmüş, zəngin qanunvericilik bazası yaradılmışdır. 1996-cı ildə “Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında”, 1998-ci ildə “Kitabxana işi haqqında”, 2000-ci ildə “Nəşriyyat işi haqqında”, 2003-cü ildə “Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında” Azərbaycan Respublikasının qanunlarının qəbul edilməsi və ölkəmizdə Müəllif Hüquqları Agentliyinin yaradılması bu sahənin inkişafını təmin etmişdir.

Bu tədbirlər sonrakı illərdə də davam etdirilmiş, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev “Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında, “Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında”, “Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında” sərəncamlar imzalamışdır. Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında” 6 sentyabr 2017-ci il tarixli Fərmanı müəllif hüquqları sahəsində sistemli tədbirlərin həyata keçirilməsinə yeni imkanlar açmışdır.





Bu gün Azərbaycanın tarixi, mədəniyyəti, musiqisi, xalçaları, muğamları, xalq yaradıcılığı, ədəbiyyatı, memarlığı, milli mətbəxi və geyimləri, mədəni irsi haqqında kitablar nəşr olunur, zəngin elmi və mədəni potensialımızın dünyada tanıdılması, xalqımızın müəlliflik hüququnun beynəlxalq aləmdə qorunması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Görülən işlərin bəhrəsi olaraq xalqımızın zəngin mədəniyyətinin və tarixinin ən gözəl inciləri YUNESKO tərəfindən bəşəriyyətin qeyri-maddi mədəni irs siyahısına daxil edilmişdir.

Naxçıvan Muxtar Respublikasında da kitab nəşri və müəllif hüquqlarının qorunmasına ciddi diqqət yetirilir, bu sahədə görülən işlərin əhatə dairəsi getdikcə genişlənir. ***“Kitabxanaya və kitablara olan diqqət hər bir ölkənin inkişaf və tərəqqisində başlıca şərtdir”***, – deyən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun diqqət və qayğısı ilə son illər muxtar respublikada fəaliyyət göstərən kitabxanaların yenidən qurulması, müasir binalara köçürülməsi, maddi-texniki bazalarının möhkəmləndirilməsi, elektron kitabxanaların istifadəyə verilməsi, kənd mərkəzlərində və ümumtəhsil məktəblərində zəngin kitabxana fondlarının yaradılması, nəşriyyatların müasir çap avadanlıqları və yeni bina ilə təmin olunması geniş mütaliə imkanları yaratmaqla yanaşı, həm də kitab nəşrinin sürətləndirilməsinə, müəlliflərin azad və maneəsiz fəaliyyətinə hesablanıb. Bu məqsədlə həyata keçirilən tədbirlərin tərkib hissəsi olaraq Naxçıvan şəhərində Kitab Evi fəaliyyətə başlamış, Naxçıvan Muxtar Respublika Kitabxanasının binası əsaslı şəkildə yenidən qurularaq elektron kitabxana sistemi istifadəyə verilmişdir.

Qədim diyarımızda təhsil və elm müəssisələrində də kitabxanaların yenidən qurulması davamlı olaraq həyata keçirilir. Naxçıvan Dövlət Universitetində və Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsində elektron kitabxanalar istifadəyə verilmişdir. Sağlamlıq imkanları məhdud insanların mütaliəsi üçün də lazımi şərait yaradılmış, Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində audio və elektron kitabxana istifadəyə verilmişdir.

Bu gün muxtar respublikada kitabxanaların maddi-texniki bazasının gücləndirilməsi ilə yanaşı, kitab fondlarının zənginləşdirilməsi istiqamətində də ardıcıl tədbirlər həyata keçirilir. “Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 12 yanvar tarixli Sərəncamına əsasən muxtar respublikanın kitabxanalarına yüz minlərlə elmi və bədii ədəbiyyat paylanmışdır. Təkcə 2017-ci ildə kitabxanalara 301 adda 13 mindən çox kitab və çap məhsulu daxil olmuşdur.

Həyata keçirilən tədbirlərin nəticəsidir ki, bu gün istər Naxçıvan şəhərində, istərsə də ucqar dağ kəndlərində kitabxana işi müasir tələblər səviyyəsində qurulmuşdur. Bu da insanların kitaba olan marağını artırmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qayğı və himayəsi sayəsində nəşr olunmuş “Naxçıvan Ensiklopediyası”, “Naxçıvan Abidələri Ensiklopediyası”, “Naxçıvan xanlığı”, “Naxçıvan tarixi atlası”, “Naxçıvan folkloru”, “Naxçıvan teatrının salnaməsi”, “Naxçıvan milli geyimləri”, “Naxçıvanda arxeoloji tədqiqatlar”, “Nuh Peyğəmbər: dünya tufanı və Naxçıvan”, “Naxçıvan tikmələri”, “Uşaqlar və Günəş”, “Naxçıvan mətbəxi”, “Naxçıvan-Şərur el yallıları”, “Naxçıvan bəstəkarlarının uşaq mahnıları”, “Naxçıvan tarixi” çoxcildliyi, “Gülüstan türbəsi”, “Əlincəqala” və başqa kitablar tariximizi və milli dəyərlərimizi öyrənmək üçün dəyərli elmi mənbələrdir.

Muxtar respublikada müasir nəşriyyat və mətbəələrin fəaliyyət göstərməsi bu sahənin inkişafında mühüm rol oynayır. Naxçıvanda yaşayan yaradıcı şəxslər bu gün kitab nəşri sarıdan heç bir çətinlik çəkmirlər. Son illər şair və yazıçılarımızın yüzlərlə kitabı işıq üzü görmüşdür. Bütün bunlar bir daha muxtar respublikada müəllif hüquqlarına və kitab işinə göstərilən qayğının bariz nümunəsidir.

Gənc nəsildə vətənpərvərlik, torpağa bağlılıq, ləyaqət, mərhəmət, xeyirxahlıq kimi mənəvi dəyərlərin inkişafında kitab əvəzsiz xəzinədir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2017-ci il 28 avqust tarixli Sərəncamı ilə “Oxunması zəruri olan kitabların siyahısı”nın təsdiq edilməsi təkcə qədim diyarımızda deyil, ölkə ictimaiyyəti, tanınmış ziyalılar tərəfindən də rəğbətlə qarşılanmışdır. Siyahıda adları qeyd edilən kitablar yeniyetmə və gənclərin vətənpərvərlik tərbiyəsinə, tarixi keçmişə, milli kökə bağlılığına və siyasi dünyagörüşünün möhkəmləndirilməsinə, ailədə, ictimai mühitdə davranış qaydalarına yiyələnməsinə xidmət edir.

***Şəxsiyyət olaraq insanın formalaşıb kamilləşməsində, mənəvi aləminin zənginləşdirilməsində, bədii təxəyyülünün, obrazlı və məntiqi təfəkkürünün, idraki bacarıqlarının inkişafında, hətta bir çox hallarda isə həyat yolunun müəyyənləşməsində və vətəndaşlıq tərbiyəsində kitab və mütaliənin rolu mühüm əhəmiyyət kəsb edir. Kitablar həm də dilimizi sevdirməyin ən gözəl vasitəsidir. Xalqımıza böyük yaradıcı şəxsiyyətlər bəxş edən Naxçıvan torpağında müəllif hüquqlarının qorunması sahəsindəki zəngin ənənələr bu gün də davam və inkişaf etdirilir.***

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin mətbuat xidməti***

## Babək rayonunda əmək yarmarkası keçirilib

Tədbiri giriş sözü ilə Babək Rayon Məşğulluq Mərkəzinin direktoru Heydər Quliyev açaraq muxtar respublikada həyata keçirilən məşğulluq tədbirlərindən, rayon əhalisinin məşğulluğu istiqamətində görülən işlərdən danışıb.

Bildirilib ki, əhalinin məşğulluğu ilə bağlı qəbul olunan dövlət proqramlarının uğurlu icrası Babək rayonunda da öz bəhrələrini verməkdədir. Bölgədə yeni iş yerlərinin açılması, infrastrukturun ən müasir tələblər səviyyəsində qurulması sosial rifahın təmin olunmasına müsbət təsir göstərib. Əmək potensialının keyfiyyətcə yüksəldilməsi, layiqli əməyin təminatı, iş yerlərində sağlam və təhlükəsiz əmək şəraitinin təmin edilməsi qarşıda duran əsas vəzifələrdəndir.

Babək Rayon İcra Hakimiyyətinin əməkdaşı Hacı Hacıyev çıxış edərək bildirib ki, son illərdə rayonun sosial-iqtisadi inkişafı istiqamətində həyata keçirilən tədbirlər əhalinin məşğulluğuna müsbət təsir göstərib, bunun da nəticəsində yüzlərlə insan müvafiq işlə təmin olunub. Keçirilən əmək yarmarkaları işaxtaran sakinlərin ixtisaslarına uyğun iş tapmalarına kömək edir.

Sonra yarmarkaya gələnlər onlara təqdim olunan vakant iş yerləri ilə tanış olublar. 22-si özəl, 50-si dövlət olmaqla, 72 təşkilatdan 229 boş iş yerinin çıxarıldığı yarmarkada 27 nəfərə işə göndəriş verilib.

**✍ Nail ƏSGƏROV**

## “Molla Nəsrəddin” jurnalının nəşrinin 112-ci ildönümü qeyd edilib

***Aprelin 20-də Naxçıvan şəhərindəki Cəlil Məmmədquluzadənin ev-muzeyində “Molla Nəsrəddin” jurnalının nəşrə başlamasının 112-ci ildönümü qeyd edilib.***

Tədbiri muzeyin direktor əvəzi Kəmalə Tahirova giriş sözü ilə açaraq bildirib ki, mütərəqqi ideyaların carçısı olan “Molla Nəsrəddin” jurnalının Azərbaycan mətbuatı tarixində özünəməxsus yeri var. Jurnalın “Molla Nəsrəddin” adı ilə fəaliyyətə başlaması naşirin və əməkdaşların qədim və zəngin milli xalq ədəbiyyatı ənənələri, güclü Şərq koloriti ilə sıx bağlılığını göstərirdi. Cəlil Məmmədquluzadə mövcud şəraitdə satirik gülüşə olan ehtiyacı xatırladaraq yazırdı: “Molla Nəsrəddin”i təbiət özü yaratdı, zəmanə özü yaratdı”.

Azərbaycan Respublikasının Əməkdar elm xadimi, professor Hüseyn Həşimli “Azərbaycan ədəbiyyatının böyük ustadı” mövzusunda çıxışında qeyd edib ki, Cəlil Məmmədquluzadə ədəbi-ictimai fəaliyyətilə ədəbiyyat tariximizdə xüsusi yer tutur. Görkəmli sənətkarın başlıca məramı Vətənə, xalqa xidmət idi. Böyük söz ustadı Cəlil Məmmədquluzadə cəmiyyətdəki və mənəviyyatdakı nöqsanlara qarşı satiradan ən kəskin bir silah kimi istifadə edirdi. Onun yaradıcılığındakı bədii gülüş çox rəngarəng, mənalı və məzmunludur.

Tədbirdə Cəlil Məmmədquluzadənin Nehrəm kəndindəki Xatirə Muzeyinin direktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi Akif Hacıyev “Molla Nəsrəddin necə yarandı?”, Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Əli Səfərlinin “Mollanəsrəddinçi rəssamlar” mövzularında çıxışları dinlənilib.

Sonra Naxçıvan Qızlar Liseyinin şagirdləri Cəlil Məmmədquluzadənin hekayə və felyetonları əsasında hazırlanmış kompozisiyanı tədbir iştirakçılarına təqdim ediblər.

Tədbirin sonunda “Molla Nəsrəddin – 112” sərgisinə baxış olub.

**Əli RZAYEV**

Axtarışlar, tapıntılar

# Naxçıvanlı ziyalılar Birinci Dünya müharibəsi illərində Türkiyəyə yardım hərəkatında fəal iştirak ediblər

***Ümummilli liderimiz Heydər Əliyevin "Bir millət, iki dövlət" adlandırdığı Azərbaycan və Türkiyənin qardaşlıq, dostluq ənənələri zəngin tarixə malik olmaqla əsrlərin sınağından çıxmış, daim möhkəmlənmişdir. Bu dostluğun ən unudulmaz və ibrətli səhifələri sırasında Birinci Dünya müharibəsi illərindəki qarşılıqlı əlaqələr özünəməxsus yer tutur. Məlumdur ki, 1914-cü ildə başlanmış Birinci Dünya müharibəsində qardaş Türkiyə çox ağır zərbələr almışdı. Cənub-qərbi Qafqazın, Şərqi Anadolunun əsrlərdən bəri türklərin məskunlaşıb yaşadığı geniş bölgələrində o zaman qanlı döyüşlər baş vermiş, nəticədə, on minlərlə müsəlman-türk yurd-yuvasını itirərək qaçqın vəziyyətinə düşmüş, ən ağır məhrumiyyətlərə düçar olmuş, yaxud öldürülmüş, yaralanmış, əsir götürülmüşdü. Belə bir vaxtda özləri də problemlər məngənəsində sıxılan azərbaycanlılar türk xalqına yardım əlini uzatmağı qardaşlıq borcu sayaraq əhəmiyyətli tədbirlər həyata keçirməyə başladılar.***



Əli Səbri Qasımov



Doktor Firuz bəy Ordubadski və həyat yoldaşı Gülsüm xanım

1915-ci ilin 26 yanvarında Bakıda Müsəlman Cəmiyyəti-Xeyriyyəsinin yığıncağında Osmanlı türklərinin ağır vəziyyəti, onlara köməklik göstərilməsinin vacibliyi nəzərə alınaraq tanınmış ictimai xadim Mirzə Əsədullayevin rəhbərliyi ilə doqquz nəfərlik yardım komitəsi yaradılmışdı. Yardım işini daha yaxşı həyata keçirmək üçün bəzi digər şəhərlərdə komitənin yerli qurumları da təşkil olunmuşdu. Azərbaycanın hər yerində əhali "Qardaş köməyi" adını almış bu hərəkata könüllü şəkildə qoşulmuş, türk xalqına yardım üçün çox böyük məbləğdə vəsait toplanmışdı. Bu vəsaitlərin bir qismi Bakıda və digər şəhərlərdə türkiyəli qaçqınların qəbulu və yerləşdirilməsinə, onların ehtiyaclarının ödənilməsinə, cəbhə bölgələrindən gətirilmiş yaralıların müalicəsinə və bu kimi başqa problemlərin həllinə sərf olunurdu. Digər tərəfdən isə Bakı Müsəlman Cəmiyyəti-Xeyriyyəsinin formalaşdırdığı bir sıra yardım qrupları Türkiyənin Qars, Ərzurum, Ərdəhan, Bəyazid, Trabzon, Rizə və digər bölgələrinə gedərək ehtiyacı olanlara zəruri köməyin göstərilməsini təşkil edirdilər. Həmin qrupların fəaliyyətinə ümumi rəhbərlik tanınmış ictimai xadim Xosrov bəy Sultanova həvalə olunmuşdu. Yardımlar isə çoxşaxəli idi. Ev-eşiyi dağıdılmış, yaxud qaçqın düşmüş müsəlman-türk əhalisi üçün müvəqqəti sığınacaqlar təşkil olunur, onlar ərzaq və geyimlə təchiz edilir, xəstə və yaralılara tibbi yardımlar göstərilirdi.

O dövrün araşdırdığımız mətbuat və arxiv materiallarına əsasən deyə bilərik ki, yardım dəstələrinin tərkibində naxçıvanlı ziyalılar da ardıcıl və hərtərəfli fəallıq göstərmişlər. Qaynaqlardan bəzilərinin məlumatlarına nəzər salaq.

Xosrov bəy Sultanov Bakıda 1917-ci ilin mayında çıxmış "Qardaş köməyi" adlı məcmuədə dərc etdirdiyi "Bakı Müsəlman Cəmiyyəti-Xeyriyyəsi hərbzədələrə yardım şöbəsinin fəaliyyəti" adlı hesabat xarakterli məqaləsində 1915-ci ildən etibarən Qars, Trabzon, Ərzurum, Bəyazid və digər ərazilərdə təşkil olunmuş çoxşaxəli yardım tədbirlərinin yerli əhali tərəfindən dərin razılıqla qarşılanmasının heyət üzvlərini daha da ruhlandırdığını nəzərə çatdırmaqla yanaşı, bu işlərdə fəal iştirak edən ziyalılar sırasında bir neçə nəfər naxçıvanlının da adını ehtiramla çəkmişdir. Xosrov bəy yazırdı: *"Bu işdə məsul vəkil və müdir olduğum üçün bunu da bəyan etməliyəm ki, ... gördüyümüz himmət və həmiyyət və maddi müzahirət bütün şöbələrdə çalışanlara qüvvəti-qəlb və ruh verərək onları öz vicdanlarının tələb etdiyi gibi çalışmağa vadar ediyordu. Çalışanların isimləri bunlardır: köməkçilərimiz: X.Axundzadə, Ə.Axundzadə, Ə.Nəzərəliyev, Rəfibəyov, Rza Qaraşəhərov, M.Məhəmmədov, Hüseynov, R.Lətifbəyov, M.İlyasov, R.Əliyev, Əli Qasımov, D.Seyidov, Soltanov, Xanım Ordubadskaya ... Qars oblastı vəkilləri: Əlixan Qantəmirov, Əhməd bəy Pepinov, doktor Əliverdibəyov, doktor Ordubadski..."*

Dəqiqləşdirdik ki, burada adı keçən şəxslərdən üçü naxçıvanlıdır. Əli Qasımov ələn Nehrəm kəndindən olan yazıçı-publisist, ictimai xadim Əli Səbri Qasımovdur. Qars bölgəsində göstərilən yardımların təşkilində məsul şəxslərdən biri kimi xatırladılan doktor Ordubadski həmyerlimiz, Kiyev Universitetinin Tibb fakültəsinin məzunu, həkim Firuz bəy Ordubadskidir, "Xanım Ordubadskaya" isə onun həyat yoldaşı Gülsüm xanımdır.

Bakıda çıxan "Açıq söz" qəzetinin 27 noyabr və 18 dekabr 1915-ci il tarixli saylarındakı məlumatlardan da öyrənirik ki, Bakı Müsəlman Cəmiyyəti-Xeyriyyəsi tərəfindən Qarsda təşkil olunmuş "Səhiyyə dəstəsi" çoxsaylı müsəlman-türk əhalisinə geniş miqyasda tibbi yardımlar göstərmişdir. Həmin tibbi heyətin fəaliyyətinə ilk dönəmdə məhz doktor Firuz bəy Ordubadski rəhbərlik etmiş, sonra isə onu Bahadur bəy Əliverdibəyov əvəzləmişdir.

Araşdırmalar göstərir ki, Firuz bəy və Gülsüm xanım Ərdəhan bölgəsində də yardım işlərinin təşkilində mühüm rol oynamışlar. O illərdə Tiflisin rusdilli mətbuatında türklərə qardaş köməyi barədə bir sıra məqalələr dərc etdirmiş tanınmış yazıçı-publisist Eynəli bəy Sultanov "Zakafkazskaya reç" qəzetinin 1915-ci ildəki 57-ci sayında "Müharibədən əziyyət çəkən müsəlmanlara" adlı məqaləsində doktor Sultanovun (Xosrov bəy Sultanov nəzərdə tutulur) mətbuatda verdiyi məlumatlara istinadən yazırdı ki, Ərdəhan okruqunun Xanlar kəndində on çarpayılıq xəstəxana, onun yanında isə iaşə məntəqəsi açılmışdır. Həmin məntəqəyə həkimin həyat yoldaşı Gülsüm xanım Ordubadskaya rəhbərlik edir. Burada xatırladılan həkim, sözsüz ki, məhz doktor Firuz bəy Ordubadskidir. Eynəli bəy bir təsirli fakta da diqqət yönəldirdi: *"Ərdəhan bölgəsindəki Dəyirman köy adlı kənddə müharibədən ziyan çəkmişlərə yardım məqsədilə tibb məntəqəsi açılarkən "hamı sevincdən ağlamış, qadınlar və uşaqlar isə xanım Ordubadskayanı doğma ana kimi qucaqlayaraq öpmüşdülər".*

Türkiyəyə yardım hərəkatında ən çox fəallıq göstərən naxçıvanlı ziyalılar sırasında Əli Səbri Qasımovun xüsusi xidmətləri olmuşdur. Xosrov bəy Sultanov yuxarıda istinad etdiyimiz məqaləsinin başqa bir yerində yazırdı ki, rəhbərliyində Əli Səbri Qasımovun da olduğu heyətin üzvləri 1916-1917-ci illərdə müsəlman-türk əhaliyə yardım tədbirlərinin təşkilində xüsusi fəallıq göstərmiş, *"Xoryadan başlamış bütün Anadolu səvahilində 53000 put qarğıdalı paylamış və vəzifələrini parlaq surətdə ifa etmişlərdi".*

Əli Səbrinin xatirələrindən də öyrənirik ki, o, Qara dəniz sahillərinə qədər gedərək geniş ərazidə yardımı təşkil edən dəstədə olmuşdur. Əli Səbri yazırdı: *"Dəstənin başçısı mən idim, çünki "Cəmiyyəti-xeyriyyə"də katib işləyirdim. Biz Batumi, Trabzon və sair şəhər və qəsəbələrdə olduq. Harda qaçqın görürdüksə, dərhal ona kömək göstərirdik. Batumidə "Cəmiyyəti-xeyriyyə"nin xüsusi qərargahını təşkil etdik. Bu qərargahın vəzifəsi qaçqınlara paltar və qarğıdalı paylamaq idi. Batumidə paraxodlarla qarğıdalı alınar, şəhərlərə, qəsəbələrə, kəndlərə göndərilərdi. Rəhbərlik etdiyim dəstədə bu məqsədlə on bir nəfər iş görürdü..."*

Məlumdur ki, çar Rusiyasının silahlı qüvvələri 1916-cı il aprelin 18-də Trabzonu tutmuşdular. Bundan sonra orada vəziyyət çox ağırlaşmışdı. Belə bir vaxtda həmin bölgənin türk-müsəlman əhalisinə yardımı daha sistemli təşkil etmək üçün Bakı Müsəlman Cəmiyyəti-Xeyriyyəsinin oradakı nümayəndəliyi böyük işlər gördü. Türkiyəli tədqiqatçı Betül Aslan bu barədə yazır: *"Trabzonun işğal edildiyi 1916-cı ildə gəlib türk qardaşlarına hər sahədə yardım və dəstək olan Bakı Müsəlman Cəmiyyəti-Xeyriyyəsinin təmsilçiləri şəhərin qurtarıldığı 24 fevral 1918-ci il tarixinə qədər keçən iki il içində Trabzon və çevrəsindəki türk xalqının yaralarını sarımış, onlara rəhbər olmuş, hər cür təhlükəni gözə alaraq çalışmışdılar".*

Bütün bu işlərdə Əli Səbrinin böyük rolu olmuşdur. Bakıda çıxan "Açıq söz" qəzetinin 18 avqust 1917-ci il tarixli sayındakı "Xüsusi teleqraf" başlıqlı xəbərdən öyrənirik ki, Bakı Müsəlman Cəmiyyəti-Xeyriyyəsinin Trabzon bölgəsində fəaliyyət göstərən heyətinə bir müddət məhz Əli Səbri rəhbərlik etmişdir. Həmin xəbərdə oxuyuruq: *"Trabzon müsəlman xeyriyyəsinin vəkili Əli Səbri Qasımov – sədr, uprava əzası Zehdi əfəndi Zehdizadə – sədr müavini, məktəbi-rüşdiyyə müdiri Bəyzadə Mustafa əfəndi katib intixab edilmişdir. Hər tərəfdən ianələr gəlməkdə və əzalar yığılmaqdadır".*

Əli Səbrinin xatirələrindəki aşağıdakı cümlələr də onun türklərə yardım hərəkatında vicdanla, dərin humanist qayə ilə iştirak etdiyini göstərməkdədir: *"Biz öz xidməti vəzifəmizi layiqincə davam etdirir, ...bütün qaçqınlara kömək əli uzadırdıq. At belində kəndləri o qədər gəzib dolaşmışdıq ki, bizi görən kimi tanıyırdılar. Üç-dörd aydan sonra bir kəndə yenidən ayaq basanda qoca qadınlar sevinir, ucadan deyirdilər: "Qurban olduğum yenə gəldi". O zaman bu sözü eşitmək nəyə desən, dəyərdi".*

Yazıçının xatirələrindən bəlli olur ki, o, Trabzonda ikən həmin yerlərdə elmi ekspedisiyada olan məşhur akademik Krımski ilə də görüşmüşdür. Ə.Səbri onu da xatırlayırdı ki, Trabzonda müsəlman-türk əhali ilə rus hərbçiləri arasında tərcüməçilik etməsi bəzi şovinist qüvvələri qəzəbləndirmiş, hətta millətçi Qunaris onun həbsi üçün müvafiq order də hazırlatmışdı. Krımskinin vasitəsilə bundan xəbər tutan Ə.Səbri məcburən Trabzonu tərk edərək Batumiyə üz tutmuş, orada da təqiblər ara vermədiyindən Gəncəyə, sonra Qazaxa gəlmişdir. Lakin az sonra geri dönüb yenə də yardım işlərində iştirakını davam etdirmişdir. Tədqiqat göstərir ki, Ə.S.Qasımovun gördüyü çoxşaxəli işlərdən biri də getdikləri yerlərdəki vəziyyət barədə hərtərəfli məlumat hazırlayaraq Bakıya göndərməsi olmuşdur. "Açıq söz" qəzetinin 14, 15, 16 və 17 avqust 1917-ci il tarixli saylarında dərc olunmuş "Trabzon məktubları" başlıqlı silsilə məqalələri bu baxımdan maraq doğurur. İndiyədək araşdırılmayan həmin məqalələrdə o zaman qardaş türk xalqının başına gətirilən müsibətin mahiyyət və miqyası barədə konkret faktlar əsasında söz açılmışdır. Ə.Səbri müxtəlif millətçi-şovinist qüvvələr tərəfindən Trabzonda həyata keçirilmiş çoxşaxəli qərətlər, dağıntılar barədə məlumat vermiş, həmçinin evlərini tərk etməyə məcbur olmuş qaçqınların yurd-yuvalarının talandığını ürək yanğısı ilə dilə gətirmişdi: *"Türklərə məxsus olub yıxılmış evlərin miqdarı dörd minə qədər varıyor... Şimdi vətənlərini tərk etmiş əhali övdət edərkən (qayıdarkən) bunlar nerədə sakin olacaqları və nasıl yaşaya biləcəkləri məlum deyildir".*

Yurd-yuvasını tərk etməmiş türklərin isə daha başqa bəlalara düçar olması, təhqirlərə, terrora məruz qalması, saxta böhtanlara həbsə alınması, əsir götürülməsi barədə də məqalədə çoxlu faktlar vardır. Ə.Səbri rus çarizminin Trabzondakı rəsmilərindən olan general Lyaxovun kömək üçün üz tutan türklərə: "Belə ufaq, kiçik məsələlərlə uğraşmağa vaxtım müsaid deyildir" deməsini də təəssüflə xatırlatmışdır. Ə.Səbri müşahidə etdiyi hadisələrə həssaslıqla yanaşmış, müxtəlif təxribatçı qüvvələrin iç üzünü də açmışdır. Məsələn, o yazırdı ki, Trabzon bölgəsinin müxtəlif yerlərində bir neçə matros öldürülmüş, təxribatçı qüvvələr bunu türklərin etməsi barədə əsassız şayiələr yaymışdılar: "Belə hadisələr təsadüfi deyildir. Yalnız xüsusi bir dəstənin tərtib verdiyi bir planın icrasıdır..." Ə.Səbri Trabzonda görüşdüyü məşhur alim Krımskinin də törədilmiş dağıntılara təəssüflə yanaşdığını məqaləsində xatırlatmışdır.

"Trabzon məktubları"nda əsas diqqəti bölgənin ağır vəziyyətinə yönəldən Ə.Səbri yerli əhalinin onların yardım dəstəsinə ümid yeri kimi baxmasına, özlərinin isə müraciətlərə operativ və həssas yanaşmalarına dair bəzi faktları da nəzərə çatdırmışdır. Məsələn, məqalədə oxuyuruq: *"İyul ayının 21-də səhər saat 9-da iki türk qorxmuş, rəngləri ağarmış kəndilərini (özlərini) mənim mənzilimə saldılar. – Əfəndim, qətl etdilər. Gəliniz! – deyə dışarı çıxdılar. Arxalarından qoşdum. Mənim köməkçilərim də əqəbimcə (arxamca) gəldilər".* Yaxud: *"Bu sətirlərin və yazıların irəli günü idi ki, mənim idarəmə qayət təmkinli, müəzzəb, yazıq, cavan bir qadın gəldi. Bu qadını başqa bir qarı müşayiət edirdi. – Əfəndim! Məni xilas ediniz! Siz bilirsiniz, əfəndim, – deyə qadın dərdini mənə anlatdı..."*

Eynəli bəy Sultanovun 2016-cı ildə rus dilində nəşr olunmuş "Publisistika" adlı kitabında ədibin yazılma və nəşr ili bilinməyən əsərləri sırasında verilmiş "Trabzon xəbərləri" adlı məqaləsi ilə bağlı müəyyən məsələləri də apardığımız tədqiqat nəticəsində dəqiqləşdirə bildik. Məqalənin əvvəlində E.Sultanov yazırdı ki, Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin Trabzondakı səlahiyyətli nümayəndəsi Ə.S.Qasımov (Əli Səbri Qasımov) bu yerlərin ruslar tərəfindən tutulmasından sonra şəhərin və onun əhalisinin ağır vəziyyətini təsvir edən geniş materiallar təqdim etmişdir. Bundan sonra isə E.Sultanov məqalədə Trabzon bölgəsindəki dözülməz şərait, törədilmiş qırğınlar, yürüdülən ayrı-seçkilik siyasəti və sair barədə faktları qruplaşdıraraq müfəssəl şəkildə nəzərə çatdırmışdır... Müqayisəli təhlillər sonunda müəyyənləşdirdik ki, Eynəli bəy Sultanovun misal gətirdiyi faktların, məlumatların hamısı məhz Əli Səbri Qasımovun "Trabzon məktubları" silsiləsindən götürülmüşdür. Bu həm də o deməkdir ki, Eynəli bəyin həmin məqaləsi Ə.Səbrinin "Trabzon məktubları"nın dərcindən sonra yazılmışdır...

Trabzon və ətraf bölgələrdə Əli Səbri ilə yanaşı, başqa bir həmyerlimiz – yazıçı, publisist və tərcüməçi, Qori Seminariyasının məzunu Ələkbər Qərib Naxçıvanlı da müsəlman-türk əhaliyə yardım tədbirlərində yaxından iştirak etmiş, öhdəsinə düşən vəzifələri layiqincə yerinə yetirmişdir...



چالشانلارك اسملری بونلاردر: كومگچیلرمز: خ. آخوند
زاده، ا. آخوندزاده، ا. نظرعلی‌یوف، رفیع بگوف، رضا
قاراشهروف، م. محمدوف، حسینوف، ر. لطیف بیگوف،
م. الیاسوف، ر. علی یوف، علی قاسموف، د. سیدوف،
ساطانوف، سلطانوف، خانم اوردوبادسقایا.
وكیللر: اصلان‌بگوف، صفی كوردسكی.
قارص اوبلاستی وكیللاری: علی‌خان قانتمیروف، احمد
بك‌پپینوف. دوقتور علی‌وردی‌بگوف، دوقتور اوردوبادسكی
ایروان غوبرنیاسی وكیللری: جموبك حاجینسكی؛
ارضروم اوبلاستی وكیلی: گنرال مایور طالیشینسكی؛
جبهه وكیلی خسرو پاشابك سلطانوف

Xosrov bəy Sultanovun məqaləsindən (1917-ci il) bir parça. Məqalədə naxçıvanlı ziyalıların – Əli Qasımov, doktor F.Ordubadski və onun xanımının yardım hərəkatında fəal iştirakı bildirilir.

Nəhayət, onu da deyək ki, Bakıda 1917-ci ildə bir sayı nəşr olunmuş "Qardaş köməyi" adlı məcmuənin satışından gələn gəlir də türklərə yardıma yönəldilmişdi. Həmin məcmuədə A.Şaiq, Ə.Cavad, Ö.F.Nemanzadə, A.Səhhət, S.Mümtaz və digər ədiblərlə yanaşı, məşhur romantik sənətkarımız Hüseyn Cavid "Hərb və fəlakət", sürgündə olan M.S.Ordubadi isə "Hürriyyətə" şeiri ilə iştirak etmişdilər. Hüseyn Cavid ağır vəziyyətə düşmüş türklərin köməyə ehtiyacını vurğulayaraq kədərlə yazırdı:

*İştə bax! Yavrular, xanım qızlar*
*Titriyor pənceyi-fəlakətdə,*
*Həp ölüm qarşısında, zillətdə.*
*Həpsi avarə, həpsi ac-çılpaq,*
*Həpsi biçarə... Bax, gözündən iraq?!*
*Həpsi qan ağlıyor da zaru-zəbun*
*Həpsi məhzun, şikəstəpər, dilxun...*
*Bir kömək, bir pənahgah arıyor...*

Onu da deyək ki, Hüseyn Cavidin sovet dövründə nəşr olunmuş kitablarında "Hərb və fəlakət" şeirinin türklərin ağır vəziyyətindən söz açılan, yuxarıdakı misraların da daxil olduğu üçüncü hissəsi verilməmişdir. Hüseyn Cavidin kitablarında "Məzlumlar üçün" adıyla çıxmış başqa bir şeiri də türklərə yardım mövzusundadır və tam adı, əslində, "Kars və Oltu ətrafında səbəbsiz olaraq alçaqcasına qətl və yağma edilən məzlumlar için" olmuşdur. Bu şeirdə: "Aman! Əsirgəməyin mərhəmətlə imdadı", – deyərək həmvətənlərimizi müharibədən zərər görmüş qardaş xalqa yardım göstərməyə çağıran şair türklərin ruhdan düşməməsini, mübarizə aparmalarını da vacib saymışdır. Hüseyn Cavid "Türk əsirlərinə" şeirində isə o zaman ruslar tərəfindən əsir götürülərək Xəzər dənizindəki Nargin adasına gətirilmiş türklərin acınacaqlı vəziyyətindən kədərlə söz açmış, yenə də yurddaşlarını qardaş xalqın faciəsinə laqeyd qalmamağa səsləmişdir...

Göründüyü kimi, naxçıvanlı ziyalılar Birinci Dünya müharibəsi illərində türklərə yardım hərəkatında həm əməli fəaliyyətləri, həm də bədii, publisistik əsərləri ilə yaxından iştirak etmişlər.

**Hüseyn HƏŞİMLİ**
*Əməkdar elm xadimi, professor*

# Oxucu məktubları

## "Şərq qapısı" qəzetinə yazırlar

### Ulu öndərin adını daşıyan liseydə oxumaq böyük şərəfdir

***Hörmətli redaksiya!***

***Mən əslən Ucar rayonundan olsam da, atamın xidməti vəzifəsi ilə bağlı Naxçıvanda böyümüşəm. Hazırda Heydər Əliyev adına Hərbi Liseyin II kursunda təhsil alıram.***



Bu gün respublikamızda istənilən sahədə inkişaf var. Silahlı Qüvvələrimizə göstərilən diqqət və qayğı da hər il artır. Bu ordu sıralarında olan hər bir əsgərə düşmən üzərində qələbə qazanmaq üçün əlavə güc verir. Mən və mənimlə birlikdə Azərbaycanın müxtəlif bölgələrindən bu qədim diyara təhsil almaq üçün gələn kursantlar fəxr edirik ki, əsası ulu öndərimiz tərəfindən qoyulan müstəqil Azərbaycanımızın ordusunun zabiti olacağıq. Bu gün təhsil aldığım 20 illik tarixə malik olan Heydər Əliyev adına Hərbi Lisey özünəməxsus ənənələri, məzunlarının uğurları ilə seçilir. Burada bizim təhsilimiz üçün hər cür şərait yaradılıb, müasir silahlardan, ağır texnikadan istifadə etmək üçün lazımi bilikləri öyrənməyimizə şərait vardır.

Ordumuza bilikli və peşəkar zabitlər gərəkdir. Bu məqsədə nail olmaq üçün əzmlə çalışırıq. Tədrisin düzgün təşkili imkan verir ki, kursantlar yaxşı təhsil almaqla yanaşı, həm də əsl zabit kimi vətənpərvər, qorxmaz, cəsur və qəhrəman yetişsinlər.

Onu da qeyd etmək istərdim ki, mən və kursant yoldaşlarım 2017-ci il oktyabr ayının 18-də Naxçıvan şəhərində muxtar respublikada ilk milli hərbi hissənin yaradılmasının 25-ci ildönümünə həsr olunmuş hərbi paradın iştirakçısı olduq. Parada ilk olaraq Azərbaycan Respublikası Dövlət Bayrağı altında təhsil aldığım liseyin kursantlarının daxil olmasından keçirdiyimiz qürur hissi bu gün də köksümüzü qabardır. Düşünürəm ki, gələcəyin zabitləri üçün bundan böyük sevinc ola bilməz.

Qarşımızda mühüm vəzifələr dayanır. Bilirik ki, daim şərəfli əsgər və zabit adını doğrultmağa çalışmalı, Vətənə, ümummilli lider Heydər Əliyev yoluna sədaqətimizi öz işimizlə nümayiş etdirməliyik. Təhsil aldığımız liseyin ulu öndərin adını daşıması biz kursantların məsuliyyətini daha da artırır. Gələcəyin zabitləri kimi ulu öndərimizin ümidlərini, arzularını doğrultmalı, Ali Baş Komandanımız cənab İlham Əliyevin hər bir əmrinə hazır olmalıyıq.

**Səfər SƏFƏRLİ**
***Heydər Əliyev adına Hərbi Liseyin kursantı***

## Minnətdarlıq

***Hörmətli redaksiya!***

*Son illərdə Naxçıvan Muxtar Respublikasının hərtərəfli inkişafına, tarixi-memarlıq, dini abidələrinin bərpa və restavrasiyasına ciddi əhəmiyyət verilir, genişmiqyaslı abadlıq, quruculuq və yenidənqurma işləri aparılır. Qədim Azərbaycan torpağı olan Naxçıvanın hərtərəfli inkişafı tarixin heç bir mərhələsində indiki səviyyədə olmayıb. Həyata keçirilən bütün bu işlər Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin və onun siyasi kursunun muxtar respublikada uğurla davam etdirilməsi ilə bağlıdır.*

### Dini-tarixi abidələrin bərpası hər birimizi sevindirir



Müqəddəs məkanlardan biri olan Əshabi-Kəhf ziyarətgahında ötən illərdə abadlıq, bərpa işləri aparılıb, zəvvarlar üçün hər cür şərait yaradılıb. Həmçinin muxtar respublikamızın ərazisində olan digər dini-tarixi abidələrin böyük əksəriyyəti də bərpa edilərək dindarların ixtiyarına verilib. Şərur rayonunun Xanlıqlar kəndindəki, Naxçıvan şəhərindəki imamzadələrin, bir sıra pirlərin, zaviyələrin, xanəgahların yenidən qurulması hər kəs tərəfindən minnətdarlıqla qarşılanır.

XVIII əsrin memarlıq nümunəsi, İslam müqəddəslərindən olan yeddinci imam Musa Kazımın oğlu Seyid Əqilin dəfn olunduğu Nehrəm İmamzadəsində də abadlıq, bərpa işləri aparılır. İslam tarixinin bir hissəsi olan imamzadələrin bərpa olunması, tariximizi və dini dəyərlərimizi özündə əks etdirən bu cür abidələrə diqqət və gələcəyə qayğı ilə yanaşmaq deməkdir. Bu günlərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Nehrəm İmamzadəsində aparılan bərpa işləri ilə tanış olub. Bütün bunlar da Nehrəm kəndinin hər bir sakini kimi, məni də çox sevindirdi. Mən həm öz adımdan, həm Nehrəm kənd sakinləri, həm də muxtar respublika dindarları adından göstərilən dövlət qayğısına görə minnətdarlığımı bildirirəm.

**Hacı Əbülfəz ZEYNALOV**
***Nehrəm kənd sakini***

## Yeni mənzilin sevinci



***Hörmətli redaksiya!***

Bu gün muxtar respublikamızda gənclərin mənzillə təmin olunması diqqət mərkəzindədir. Yeni yaşayış binaları inşa olunur, mənzillər güzəştli ipoteka yolu ilə gənc ailələrə verilir. Bu şəraitdən istifadə edən gənc ailələr də yeni mənzil sahibinə çevriliblər. Bu da insan amilinə verilən qiymətin daha bir ifadəsidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qayğısı nəticəsində muxtar respublikada gənclərin mənzilə olan tələbatının ödənilməsi istiqamətində görülən işlərin tərkib hissəsi olaraq Naxçıvan şəhərində yeni yaşayış kompleksi – "Gənclər şəhərciyi" salınıb. Bu il aprelin 7-də həmin yaşayış kompleksi istifadəyə verildi.

"Naxçıvan İpoteka Fondu" Açıq Səhmdar Cəmiyyətinin maliyyələşdirilmiş ipoteka kreditlərindən istifadə edərək yeni yaşayış kompleksində mənzil sahibi olanlardan biri də bizim ailədir. Aldığımız kredit hesabına şəhərimizin görkəmli yerlərindən birində – müasir "Gənclər şəhərciyi"ndə mənzil sahibi olduq. "Gənclər şəhərciyi" yaşayış kompleksində müasir yaşayış standartlarına cavab verən binalar, xidmət və istirahət sahələri yaradılıb. Kompleksin üstün cəhətlərindən biri də həm təhsil müəssisələrinə, həm də ticarət mərkəzinə yaxın ərazidə yerləşməsidir.

Mən həm öz ailəmiz, həm də "Gənclər şəhərciyi" yaşayış kompleksində mənzil sahibi olan bütün ailələr adından göstərilən qayğıya görə dövlətimizə minnətdarlığımı bildirirəm.

**Xanım BAYRAMOVA**
***Naxçıvan şəhər sakini***

## Yeni müəssisə zərgərlik sənətinin inkişafına öz töhfəsini verəcək

***Hörmətli redaksiya!***



Ötən günlərdə Naxçıvan şəhərində "Miraj Gold" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən yaradılan qızıl və gümüş zinət əşyaları hazırlayan fabrikin istifadəyə verilməsi muxtar respublikada həm də zərgərlik sənətinin yaşadılması sahəsində görülən işlərin davamı kimi dəyərləndirilmelidir.

Mən 27 ildir, zərgər işləyirəm. Fabrikin fəaliyyətə başlaması mənim və mənim kimi zərgərliklə məşğul olan insanların burada işlə təmin olunmasına şərait yaradıb.

Müəssisədə 35 nəfərin işlə təmin edilməsi muxtar respublikamızda gənclərin bu sənətə yiyələnməsinə imkan verəcəkdir. Sevinirəm ki, uzun illərdir, məşğul olduğum sənəti gənclərə də öyrədəcəyəm. Bu da açılış tədbirində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin dediyi kimi, sənətdə varisliyi təmin edəcəkdir. Bax əsas məsələ də budur: zərgərlik sənəti yaşayacaq.

Əsrlər boyu yaşatdığımız qədim el sənəti zərgərliyin belə yüksək səviyyədə inkişafı tarixin müxtəlif dövrlərində naxçıvanlı xanımları bəzəyən zinət əşyalarının üzərində olan milli ornamentlər bugünkü müasir üslubda istehsal edilən qızıllara işlənərək yaşadılacaq, xanımlarımızın zövqünü oxşayacaq. Digər tərəfdən qədim diyarımıza gələn qonaqlar da bu fabrikin istehsalı olan zərgərlik məmulatlarından almaq imkanı qazanacaq, bu da milli dəyərlərimizin, qədim zərgərlik nümunələrimizin müasir üslubda təbliğinə xidmət edəcəkdir.

**Azər SADİQOV**
***Naxçıvan şəhəri***

## Razılıq

### Sakinlər baytarlıq xidmətindən razılıq edirlər

***Hörmətli redaksiya!***

Ölkəmizdə, eləcə də muxtar respublikamızda kənd təsərrüfatının aparıcı sahəsi olan heyvandarlığın inkişafına göstərilən diqqət və qayğı öz müsbət nəticələrini verməkdədir. Bu sahənin inkişaf etdirilməsi ilə heyvandarlıq məhsullarının bolluğuna nail olunub. Bunun səbəblərindən biri isə Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidməti əməkdaşlarının epizootoloji sabitliyin saxlanması və əhalinin sağlamlığının təhlükəli yoluxucu xəstəliklərdən və qida zəhərlənmələrindən qorunması istiqamətində fəaliyyətinin günün tələbləri səviyyəsində qurulmasıdır.

Bu gün muxtar respublikanın kənd mərkəzlərində istifadəyə verilən baytarlıq məntəqələri lazımi avadanlıqlarla təmin olunub, süni mayalandırma tədbirlərinin aparılması üçün hərtərəfli şərait yaradılıb. Ucqar dağ kəndlərində yaradılmış baytarlıq məntəqələri lazım olan dərmanlarla vaxtlı-vaxtında təmin olunur. Bütün bu görülən işlər də xəstəliklərin qarşısını vaxtında almağa imkan verir.

Yaşlı insanlar yaxşı xatırlayarlar... Bir vaxtlar mal-heyvan xəstələnəndə baytar həkim tapa bilmirdik. Bu da çox vaxt heyvanların tələf olmasına gətirib çıxarırdı. İndi bütün problemlərimiz öz həllini tapıb. Heyvandarlığın inkişafına göstərilən dövlət qayğısı hesabına kəndlinin mal-heyvan saxlamağa marağı artır. Artıq, demək olar ki, hər həyətdə, iribuynuzlu, xırdabuynuzlu malqaraya rast gəlinir. Bu da fərdi təsərrüfatlar yaradılarkən kreditlərdən istifadə olunması, aztəminatlı ailələrə mal-qaranın verilməsi, heyvanların cins tərkibinin yaxşılaşdırılması ilə əlaqədardır.

Yaşadığım Culfa rayonunun Xanəgah kəndində də heyvandarlığa maraq getdikcə artır. Kənddəki baytarlıq məntəqəsinin fəaliyyətindən təkcə xanəgahlılar deyil, rayonun bu istiqamətdə yerləşən yaşayış məntəqələrinin sakinləri də razılıq edirlər. Məntəqənin baytar həkimi Abdulla Əliyev kənd sakinlərinin saxladıqları heyvanların sağlam bəslənilməsi, müxtəlif qabaqlayıcı profilaktik tədbirlərin həyata keçirilməsi, peyvəndlərin vaxtında aparılması üçün əlindən gələn köməyi əsirgəmir. Bu da kənd adamlarının keyfiyyətli heyvandarlıq məhsulları istehsal etmələrinə, daxili bazara yerli sağlam məhsul vermələrinə şərait yaradıb.

**Şəmil HACIYEV**
***Culfa rayonu, Xanəgah kəndi***


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1490. Sifariş № 296